| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **11.10.2017** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **422** |
| **ADI** | **“Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın təsdiq edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Xalq Qəzeti (Dərc olunma tarixi: 12-10-2017, Nəşr Nömrəsi: 223), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2017, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1887)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **12.10.2017** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **090.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **14201710110422** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **13.10.2017** |

**“Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanının 9.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 11 oktyabr 2017-ci il
422

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 11 oktyabr tarixli 422 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

**Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi**

**QAYDASI**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanının (bundan sonra - Fərman) 9.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin, həmin Fərmanla təsdiq edilmiş *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun* vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nın 3.1-3.3-cü bəndləri ilə müəyyən edilmiş tələblərə uyğun verilməsi qaydasını müəyyən edir.[1]

1.2. Nəzarət zərfi dövlətə məxsus bankların öz vəsaitləri dedikdə, *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun* vəsaiti istisna olmaqla, bankların aktivlərinin ipoteka kreditlərinə yönəldilə bilən sərbəst hissəsi başa düşülür.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. nəzarət zərfi dövlətə məxsus bank - səhmlərinin 50 faizdən artıq hissəsi birbaşa və ya dolayısilə dövlətə məxsus olan bank;

1.3.2. kreditlərin cəmləşməsi - müxtəlif təsnifatlar (kreditlərin növləri, aidiyyəti olan şəxslər, iqtisadiyyatın sektorları, coğrafi zonalar) üzrə kreditlərin cəmi;

1.3.3. kreditlərin mühüm cəmləşməsi - kreditin cəmləşməsinin banklar tərəfindən müəyyən edilmiş limitləri aşan həcmi.

**2. Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi**

2.1. Nəzarət zərfi dövlətə məxsus banklar (bundan sonra - bank) tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditləri Fərmanla təsdiq edilmiş *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun* vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nın 3.1-3.3-cü bəndləri ilə müəyyən edilmiş tələblərə cavab verməlidir.

2.2. Bank tərəfindən öz vəsaitləri hesabına verilən ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin maksimal məbləği və həmin kreditlər üzrə illik faiz dərəcələri *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının* Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə təsdiq etdiyi hədlərə uyğun olaraq bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən müəyyən edilir.[2]

2.3. Bankın öz vəsaiti hesabına ipoteka kreditinin verilməsi Fərmanla təsdiq edilmiş *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun* vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nın 4-cü hissəsinə uyğun olaraq “Elektron hökumət” portalında olan “*Elektron ipoteka və kredit zəmanət*” sistemi vasitəsilə həyata keçirilir.[3]

2.4. Bank tərəfindən öz vəsaiti hesabına verilən kreditlər üzrə limitlər təsbit edilir və müntəzəm monitorinq, hesabat tərtib edilməsi ilə əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

2.5. Limitlər müəyyənləşdirilərkən aşağıdakı məsələlər nəzərə alınmalıdır:

2.5.1. hər bir növü üzrə ipoteka kreditinin maksimum məbləği və növlər üzrə ipoteka kreditlərinin cəmləşməsi;

2.5.2. ipoteka kreditlərinin ümumi həcminin depozitlərin həcminə nisbəti;

2.5.3. ipoteka kreditlərinin ümumi həcminin depozitlərin və cəlb edilmiş digər vəsaitlərin cəminə nisbəti;

2.5.4. bir borcalan və bir-biri ilə əlaqəli borcalanlar qrupu üzrə ipoteka kreditinin maksimum məbləği və belə kreditlərin cəmləşməsi;

2.5.5. coğrafi yerləşmə üzrə ipoteka kreditlərinin cəmləşməsi;

2.5.6. banka aidiyyəti olan şəxslərə verilən ipoteka kreditinin maksimum məbləği və belə kreditlərin cəmləşməsi;

2.5.7. eyni ödəmə müddətləri olan ipoteka kreditlərinin cəmləşməsi;

2.5.8. qeyri-işlək ipoteka kreditlərinin cəmləşməsi;

2.5.9. bankın filialı tərəfindən verilən ipoteka kreditlərinin maksimum məbləği və belə kreditlərin cəmləşməsi (filiala bu növ əməliyyatlara icazə verildikdə).

2.6. İpoteka kreditlərinin mühüm cəmləşməsi barədə bankın səhmdarlarının ümumi yığıncağına və müşahidə şurasına mütəmadi olaraq məlumat təqdim olunmalıdır.

**Qeyd.** Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 may 2018-ci il tarixli **209** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 12 may 2018-ci il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 1117**)
2. 19 sentyabr 2018-ci il tarixli **403** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 20 sentyabr 2018-ci il, 210 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1931**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 8 may 2018-ci il tarixli **209** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 12 may 2018-ci il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 1117**) ilə “Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın 1.1-ci, 1.2-ci, 2.1-ci və 2.3-cü bəndlərində “**Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin**” sözləri “**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun**” sözləri ilə əvəz edilmişdir.

[2] 8 may 2018-ci il tarixli **209** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 12 may 2018-ci il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 1117**) ilə “Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın 2.2-ci bəndində “**Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının**” sözləri “**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının**” sözləri ilə əvəz edilmişdir.

[3] 19 sentyabr 2018-ci il tarixli **403** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 20 sentyabr 2018-ci il, 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1931**) ilə “Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın 2.3-cü bəndində “**Elektron ipoteka**” sözləri “**Elektron ipoteka və kredit zəmanət**” sözləri ilə əvəz edilmişdir.